RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:10.12975/rastmd.2015.03.02.00055




# ŞÜŞTƏR VƏ HUMAYUN MUĞAMLARININ MÜQAYİSƏLİ ARAŞDIRILMASI

**Şəbnəm Şıxəliyeva**

**ÖZET**

Azerbaycan muğamlarının her biri kendine özgü biçim, düzen, melodi, tonla, makam, imaj, ritm özelliklerine sahiptir. Bununla birlikte onların ortak ve benzer cəhərləri de vardır. Ortak ve farklı özellikler müzikbilimde muğamların mukayeseli incelenmesine esas veriyor. Bu makale Şüşter ve Humayun makamlarının ortak, benzer ve farklı özelliklerine hasredilmiştir. Makalede karşılaştırma yöntemine dayanarak, bu makamların arasında ortak ve farklı özelliklerin bazıları araştırmış, tespit edilmişdir. Şüşter ve Humayun makamlarının karşılaştırılması form, şube yönetimi, bedii-duygusal ifade ve makam gibi faktörler temelinde yapılmıştır.

**Anahtar Kelimeler:** Şüşter, Humayun, muğam, maqam, özellikler, karşılaştırmalı yöntem

# A COMPORATIVE RESEARCH OF SHUSTAR AND HUMAYUN MUGHAMS

**Shabnam Shikhaliyeva**

**ABSTRACT**

This article is about Azerbaijani mughams Shushter and Humayun. Azerbaijani mughams have its own characteristics. Each of mughams has its own individual melodies, rhythms, forms, characteristics, structure, tone. But there are common features of mughams. İn this article common and distinctive features of Shushtar and Humayun mugams are explored. There is used comparative method. Humayun and Shushtar mughams are comparative analysed of form, structure, character, maqam, cadenza aspects.

**Keywords:** Shushtar, Humayun, mugham, maqam, features, comporative method

## GİRİŞ

### Müqayisəli araşdırmanı şərtləndirən amillər

Azərbaycan muğam sənəti qədim tarixə, çoxşaxəli ifaçılıq ənənələrinə və zəngin ifadə vasitələrinə malikdir. Muğam orta əsrlərdən etibarən musiqi nəzəriyyəsində və praktikasında həm janr, forma, həm də məqam kimi qərarlaşmış, müxtəlif bədii yaradıcılıq və elm sahələri ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir. Sifahi şəkildə yaşayaraq, daim nəsillərdən-nəsillərə ötürülən qədim muğam sənəti tarixlər boyu aramsız təkamül prosesləri keçmiş [9], müxtəlif dəyişikliklərə və yeniliklərə məruz qalmış, daim təkmilləşmiş, bu günümüzə qədər xalqın sevimli musiqi irsi kimi yaşamışdır. "Doğrudan da, Azərbaycan xalqının musiqi sənəti əsrlər boyu təkmilləşə-təkmilləşə, cilalana-cilalana özünəməxsus bir inkişaf yolu keçərək, bu gün özünün ən yüksək səviyyəsinə çatmışdır." [7, 38];[8]. Belə ki, XX əsrdən etibarən muğam janrı bəstəkar yaradıcılığında da geniş tətbiq olunmuş, bəstəkarların üslub fərdiliyinə təsir etmişdir. Muğamlar əsasında opera,

simfonik, kamera-instrumental, xor əsərləri yazılmış, zəngin bədii ifadəliliyə, rəngarəng melodiya, intonasiya, məqam və ritm quruluşlarına malik olan muğamlar bəstəkar yaradıcılığının da inkişafında mühüm rol oynamışdır.

Müasir dövrdə Azərbaycan professional musiqi incəsənətində muğam janrının özünəməxsus yeri və rolu vardır. Muğam artıq Azərbaycan şifahi ənənəli peşəkar musiqi sənəti kimi artıq dünya miqyasında çıxaraq, müxtəlif beynəlxalq festivallarda, müsabiqələrdə, konsert salonlarında səslənir, dinləyicilər tərəfindən hər zaman maraqla qarşılanır.

Azərbaycan musiqişünaslığında muğam haqqında maraqlı elmi məqalələr, dissertasiyalar, monoqrafiyalar və dərs vəsaitləri yazılmışdır. Bu tədqiqatlarda muğamlar müxtəlif aspektlərdən araşdırılmış, təhlil olunmuşdir. Muğam sənətinin tədqiq olunması, muğamların təhlili müasir dövrdə elmi aktuallıq daşıdığı üçün artıq ayrı-ayır muğamların da öyrənilməsinə başlanılmışdır. Bu istiqamətdə, R.Musazadə "Dügah", K.Əsədullayeva "Rast"[8]; [10], N.Qaralova "Nəva", B.Rzayeva "Rəhab" muğamı haqqında ayrıca tədqiqatlar yazmışlar. Muğamşünaslıq elminin müasir tələblərinə əsasən biz də xüsusi olaraq Şüştər muğamını araşdırmağı və təhlil etməyi qarşımıza məqsəd qoymuşuq. Bu məqalənin predmeti Şüştər muğamı ilə Humayun muğamının oxşar və fərlqi xüsusiyyətlətini müqayisəli şəkildə araşdırmaqdan ibarətdir.

Şüştər və Humayun muğamlarının müqayisəli araşdırılması hansı səbəblər ilə bağlıdır? Müqayisəli musiqişünaslığın təcrübəsinə istinad edərək, deyə bilərik, musiqi janrları, nümunələri, əsərləri arasında müqayisəni yarada bilən və müqayisəli yanaşmaya əsas verən amillər sırasına tərəflər arasındakı uyğun və oxşar cəhətlər, analoji göstəricilər və paralel quruluşlar daxildir. Bu amil əsasında deyə bilərik ki, Şüştər və Humayun muğamlarına müqayisəli metodla yanaşmağımızın əsas səbəbi də bu iki muğamın uyğun və oxşar xüsusiyyətləri, analoji bədii, forma, quruluş göstəriciləridir. Lakin bununla belə, bu iki oxşar muğam arasında müəyyən konkret fərqlər də vardır. Müqayisəli araşdırmada bu fərqlərin aşkar edilməsini məqsədəuyğun sayırıq.

Müqayisəli araşdırmaya Şüştər və Humayun muğamlarının aşağıdakı xüsusiyyətləri cəlb olunmuşdur:

1. Forma və quruluşu; şöbə tərkibi
2. Janr əhatəsi
3. Bədii-emosional ifadə
4. Məqam quruluşu
5. Kadensiya (ayaq)

**Şüştər və Humayun muğamlarının forma və quruluşu**

Azərbaycan muğamlarının təsnifatı sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov tərəfindən aparılmışdır [7, 42]. Bu təsnifatda muğamlar üç qrupa bölünmüşdür:

1. Dəstgah muğamlar
2. Kiçik həcmli muğamlar
3. Zərbi-muğamlar

Şüştər də, Humayun də dəstgah şəklində çalınıb-oxunurlar. Bu muğamların ikisi də ifaçılıq ənənəsində dəstgah formasına malikdir. Dəstgah dedikdə, muğamın sazəndə-xanəndə dəstəsi tərəfindən, vokal-instrumental şəkildə ifası nəzərdə tutulur. Bu muğamlardan hər birinin özünəməxsus instrumental dəraməd və rəngləri, vokal ifa edilən təsnifləri vardır. Bununla yanaşı, bütün muğamlar kimi Şüştər də, Humayun də

instrumental formada ifa olunurlar. İntrumental ifa dedikdə, muğamın hər hansı bir alətdə fərdi-solo ifası nəzərdə tutulur.

Şöbə tərkibinə görə Humayun və Şüştər muğamları bir-birindən fərqlənirlər. Belə ki, Humayun muğamında şöbələrin sayı Şüştərdə olduğundan çoxdur. Bu baxımdan, Humayun muğamı Şüştər nisbətən böyük forma və quruluşa malikdir. Onu da qeyd edək ki, muğamların təsnifatında kiçik həcmli muğamlar növünə Humayun deyil, Şüştər daxildir. Şüştərin kiçik həcmli muğam olması, onun forma baxımdan da kiçik olmasına dəlalət edir.

Şüştər və Humayun muğamları şöbələrinə, yəni tərkib hissələrinə görə də müəyyən oxşaqlığa malikdirlər. Belə ki, Humayun nisbətən iri həcmli muğam olduğundan özündə Şüştər muğamını da birləşdirir. Hal-hazırda ifaçılıqda Humayun muğam dəstgahı bu şöbə ardıcıllığı ilə ifa edilir: Bərdaşt, Humayun (Mayə), Bəxtiyarı, Feili, Böyük məsnəvi, Mövləvi, Şüştər, Tərkib, Üzzal, Kiçik məsnəvi, Ayaq. Kiçik həcmli Şüştər muğam dəstgahının tərkibinə isə Humayuna daxil olan şöbələrdən Şüştər, Feili, Məsnəvi Mövləvi, Tərkib daxildir. Beləliklə, Şüştər dəstgahı Bərdaşt (Əmiri), Şüştər (mayə), Feili, Məsnəvi, Mövləvi, Tərkib, Ayaq şöbələrindən qurulmuşdur. Lakin bəzən xanəndələr və çalğıçılar Şüştər dəstgahında Üzzal və Kiçik məsnəvi şöbələrini də ifa edirlər.

Bu muğamlardan hər birinin bərdaştı, mayəsi və ayağı özünəməxsus melodiya və məqam quruluşuna malikdir. Yalnız ortaq şöbələr eyni melodiya və kadanslar ilə ifa olunurlar. Beləliklə, Humayun və Şüştər öz şöbə tərkiblərinə müqayisə oluna bilirlər.

**Şüştər və Humayun muğamlarının janr əhatəsi**

Janr əhatəsi dedikdə, muğamın xalq musiqisində əhatə etdiyi janrlar nəzərdə tutulur. Artıq məlum olan həqiqətdir ki, muğamlar iri formaya, çoxhissəli tərkibə, zəngin melodikaya, rənagərang intonasiya ifadəliyinə, mürəkkəb məqam quruluşuna malik olduqlar üçün digər janrlar – xalq mahnıları, xalq rəqsləri, zərbi-muğamlar və şikəstələr, təsnif və rənglər, dini oxumalar melodiya, intonasiya, məqam xüsusiyyətlərinə görə məhz muğamlara bağlanırlar. Xalq musiqiçilərinin təbirincə desək, xalq musiqisinin bütün janrları muğamların üzərində qurulublar, muğamların üstündə çalınıb-oxunurlar.

İlk əvvəl Azərbaycan xalq musiqisinin janrlarına nəzər salaq. Ü.Hacıbəyli Azərbaycan xalq musiqisinin janr təsnifatını verərkən, onları 3 əsas qrupa bölmüşdür [3, 217-218]. Bu təsnifar aşağıdakı kimidir:

1. Bəhrli
2. Bəhrsiz
3. Qarışıq bəhrli

Bəhrli janr qrupuna xalq mahnıları, xalq rəqsləri, təsniflər, dəraməd və rənglər daxildir. Bəhrsizlər qrupu yalnız muğam janrından ibarətdir. Görkəmli muğam bilicisi və musiqi nəzəriyyəçisi, professor M.S.İsmayılov "Azərbaycan xalq musiqisinin janrları" monoqrafiyasında qarışıq bəhrli qrupa zərbi-muğam və şikəstətələri aid etmişdir [4].

Şüştər və Humayun muğamlarına da bu aspektdə yanaşaraq, onların hər birinin janr əhatəsinə diqqət edək. İstər Şüştər, istər Humayun muğamının janr dairəsinə xalq mahnıları, xalq rəqsləri, təsniflər və rənglər, dini musiqi nümunələri daxildir. Üzeyir Hacıbəylinin təsnifatına əsaslanaraq, deyə bilərik ki, Şüştər muğamı üzərində də, Humayun muğamı üzərində bəhrli janr nümunələri ifa olunurlar. Əlbəttə, bu nümunələrin hər biri aid olduğu muğama - Şüştərə və ya Humayuna, bu muğamların melodiya, intonasiya, məqam xüsusiyyətlərinə əsaslanırlar.

Qarışıq bəhrli qrupa gəlincə isə, burada Şüştər və Humayun muğamları tamamilə fərqlənirlər. Belə ki, Humayun muğamının janr əhatəsinə heç bir zərbi-muğam daxil

deyildir. Lakin əksinə, Şüştər muğamının janr çevrəsinə 2 zərbi-muğam daxildir: 1. Ovşarı; 2. Heydəri.

Müqayisədən göründüyü kimi, bu muğamlar janr əhatəsinə görə yalnız zərbi-muğamlarda fərqlənirlər.

**Şüştər və Humayun muğamlarının bədii-emosional xüsusiyyətləri**

Azərbaycan muğamlarından hər biri özünəməxsus bədii-emosional məzmuna və təsir imkanlarına malikdir. Muğamların daşıdığı bədii-emosional yaşantılar onların bədii-estetik konsepsiyasını təşkil edir.

Şüştər və Humayun muğamları musiqi-bədii obraz cəhətdən də, emosional məzmun baxımdan da oxşardırlar. Hər iki muğamın qəmli və kədərli emosinal ifadəyə malikdir. Dahi bəstəkar və musiqişünas-alim Üzeyir Hacıbəyli “Azərbaycan xalq musiqisinin əsasları” kitabında muğamları bədii-ruhi təsir cəhətdən belə səciyyələndirmişdir: “Bədii-ruhi təsir cəhərindın “Rasr” dinləyicidə mərdlik və gümrahlıq hissi, “Şur” şən, lirik əhvali-ruhiyyə, “Segah” məhəbbət hissi, “Şüştər” dərin kədər, “Cahargah” həyəcan və ehtiras, “Bayatı-Şiraz” qəmginlik, “Humayun” isə “Şüştər”ə nisbətən daha dərin bir kədər hissi oyadır” [2, 16].

Göründüyü kimi, Ü.Hacıbəyli Şüştər və Humayun muğamlarının bədii-ruhi təsirini dərin kədər hissləri ilə bağlayıbdır. Hətta Humayunda kədər Şüştərin daşıdığı dərin kədərdən daha təsiredicidir. Lakin bu kədər Şüştərdə lirik-aşiqanə, Humayunda isə müdirk-fəlsəfi məzmun daşıyır. Bununla belə, hər iki muğamda kədər pessimist, düşkün ruhlu tərkidünya kədəri deyildir, əksinə, aşiqanə-irfani kədərdir, ilahi eşqin işığına bürünmüş kədərin musiqi-bədii təcəssümüdür.

Məlumdur ki, muğamların bədii-emosinal konsepsiyası orta əsr Şərq fəlsəfəsi və poeziyasının daşıdığı ilahi dərketmə və səmavi eşq ilə bağlıdır. Orta əsrlərin klassik poeziyasında olduğu kimi, qəzəllə oxunan muğamlarda da, instrumental muğamlarda da əsas obraz aşiq və sevgili yardır. Aşiqin sevgidən keçirdiyi emosional, mənəvi və ruhi yaşantılar müxtəlifdir. Bu yaşantılarda sevən aşiq bəzən filosof kimi müdrik, bəzən aqil, bəzən arif, bəzən də tənhadır. Muğamlardakı aşiq obrazı bəzən sufidir, bəzən dərvişdir, bəzən dünyagirdir, bəzən də dünyadan əlini üzən həqiqət yolçusudur. Sevən aşiq bəzən döyüşkəndir, coşquludur, bəzən də kədər aləminə qapılmış biganə və tənha müdrikdir. Digər tərəfdən, bu muğamların poetik mətnini təşkil edən qəzəllərin bədii və obrazlı səciyyəsi də musiqinin obrazlılığını, mənəvi-ruhi subyektini şərtləndirir. Belə obraz və onun emosional-mənəvi yaşantıları muğamların musiqi-bədii ifadəliliyində və melodik məzmununda öz əksini tapır.

**Şüştər və Humayun muğamlarının məqam quruluşu**

Üzeyir Hacıbəyli “Azərbaycan xalq musiqisinin əsasları” kitabında yeddi əsas məqamların sırasında Şüştər və Humayunu da göstərmişdir. [2]. Ü.Hacıbəylinin və M.S.İsmayılovun məqam nəzəriyyələrinə əsasən Şüştər və Humayun muğamlarının məqam quruluşunu müqayisə etdikdə, onların bəzi ümumi və fərqli cəhətləri ilə qarşılaşırıq. Şüştər məqamı iki əksidilmiş tetraxordun yanaşı üsulla birləşməsindən əmələ gəlir. Professor M.S.İsmayılov Ü.Hacıbəylinin nəzəriyyəsini inkişaf etdirərək, Humayun məqamı haqqında yeni fikirlər irəli sürmüş, bu məqamı eyni adlı muğamın quruluşuna uyğunlaşdırmışdır. Onun fikrincə, Humayun muğamı da, eynilə Şüştər kimi qurulur [5, 24-30].

Bu məqamların ümumi xüsusiyyətləri aşağıdakılardır:

1. Şüştər və Humayun məqamlarının ikisi də ½ - 1 - ½ quruluşlu əksidilmiş tetraxord vasitəsilə qurulur;

2. Şüştər və Humayun məqamları ½ - 1 - 1/2 quruluşlu iki əksidilmiş tetraxordun yanaşı üsulla (art.2 vasitəsilə) birləşməsindən əmələ gəlirlər.

3. Şüştər və Humayun məqamlarının mayəsi həm də əsas ton funksiyasını daşıyır.

4. Şüştər və Humayun məqamlarının ikisi də 8 pillədən ibarətdir.

5. Şüştər və Humayun məqamlarının hər ikisində səs sırasının VI pilləsi Şüştər, VII pilləsi Tərkib adlanır. Bu da üyni adlı muğamların şöbə tərkibi ilə bağlıdır.

Bununla yanaşı, Şüştər və Humayun məqamlarının fərqli, özünəməxus xüsusiyyətləri də vardır:

1. Şüştər məqamının mayəsi səs sırasının VI pilləsidir

2. Humayun məqamının mayəsi səs sırasının II pilləsidir

Bu ümumi və fərqli xüsusiyyətlər əsasında hər iki məqamın səs sırasını təqdim edək. İlk olaraq, istənilən səsdən, məsələn, "do diyez" səsindən əksidilmiş tetraxord quraq:




İndi isə bu tetraxorda eyni quruluşlu ikinci tetraxordu yanaşı üsulla (art.2) əlavə edək:



İki əksidilmiş tetraxorddan və səkkiz pillədən ibarət olan bu səssırası Şüştər məqamının da, Humayun məqamının ola bilər. Əsas fərq ilk növbədə mayə pilləsindədir. Şüştər məqamında mayə funksiyasını VI pillə yeirinə yetirir:




Humayun məqamında isə mayə funksiyasını II pillə yerinə yetirir:




Bu məqamlat istinad pillələrinin sayına və funksiyalarına görə də ümumi və fərqli xüsusiyyətlər daşılırlar. Məsələn, Şüştər məqamında 3 istinad pərdəsi mövcuddur: III pillə - tamamlayıcı ton; VI pillə - məyə (Şüştər); VII pillə- tərkib.

Bu pillələr Humayun məqamına da daxildirlər. Lakin Humayun məqamının 5 istinad pilləsi vardır: II pillə - mayə (Humayun); III pillə, IV pillə - xarakter ton; VI pillə - şüştər; VII pillə - tərkib. Bütün muğamlarda və məqamlarda olduğu kimi, Şüştər və Humayun məqamları da özünəməxsus və fərqli kadensiyaya (ayaq) malikdir.

**KAYNAKLAR**

1. Əsədullayev A. İnstrumental muğamlar. – B.: Adiloğlu, 2009. - 168 s.

2. Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. - B.: Yazıçı, 1986.-154 s.

3. Hacıbəyov Ü. Azərbaycan musiqi həyatında bir nəzər. // Seçilmiş əsərləri. II c. – B.: Azərbaycan SSR EA nəşriyyatı, 1965, s. 215-225.

4. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin janrları.- B.: İşıq, 1984.-100 s.

5. İsmayılov M.S. Azərbaycan məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. - B.: Elm, 1991. - 120 s.

6. Məmmədov N. Azərbaycan muğamları Çahargah və Humayun. - B.: 1962.

7. Zöhrabov R. Azərbaycan muğamları. – B.: Təhsil, 2013. - 336 s.

8. Soysal, F. Rast Muğamı Çerçevesinde Azerbaycan Muğam Kavramı, 2012, Diyarbakır.

9. F. Soysal, H. Toker, Üzeyir Hacıbeyli'nin Maarif ve Medeniyet Mecmuasındaki Beş Makalesinin İncelenmesi, Diyarbakır, Fikri Soysal, 2014, ISBN: 978-605-86673-3-4

10. F. Soysal, Fikri Soysal Metodolojik Muğam Eğitimi Serisi, Rast Muğamı Berdaşt Şubesi, Diyarbakır, Fikri Soysal, 2012, ISBN: 978-605-86673-0-3